**Qeyd 1: Giriş**

Maliyyə hesabatları 31 dekabr 2020-ci il tarixində tamamlanan il üzrə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq maliyyə hesabatlarının istifadəçilərə təqdim edilməsi üçün hazırlanmışdır.

Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti (Azərsığorta) müstəqil dövlət təşkilatıdır. (bundan sonra Şirkət) Onun tərkibinə respublikanın şəhər və rayonlarının fəaliyyət göstərən filialları daxildir. Şirkətin əmlakı dövlət mülkiyyətidir. Nizamnamə kapitalı - 9.000.000 manat - pul vəsaiti formasında 6.750.000 manat; əmlak formasında - 2.250.000 manat.

Sığortaçının filiallarının sayı - 75

Ştat işçilərinin ortalama sayı - 491

VÖEN - 1400079571

**Qeyd 2: Şirkətin haqqında qısa məlumat**

Şirkət 10 avqust 1994-cü ildə tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Dövlət Sığorta Nəzarətində dövlət qeydiyyatından keçərək 86 nömrəli şəhadətnamə almışdır. Şirkət, Azərbaycan respublikası Maliyyə Nazirliyi tərəfindən verilmiş 000270 nömrəli, qeydiyyat nömrəsi 306, 14 oktyabr 2009-cu il tarixli sığorta lisenziyasına əsasən fəaliyyət göstərir. Şirkət sığorta bazarında dövlət icbari və könüllü sığorta əməliyyatları aparır.

**Şirkətin hüquqi ünvanı:**

Azərbaycan Respublikası, Bakı şəhəri, Binəqədi rayonu, İ. Dadaşov küçəsi, ev 260, telefon -(012) 561-23-44

İdarə Heyətinin sədrinin vəzifəsini müvəqqəti icra edən: Hacıyev Aftandil Əskər oğlu

Baş mühasib:Şərifova Əfruz Mustafa qızı

Şirkətin bundan əvvəlki dövrünün auditi "Business Consulting Company" MMC şirkəti tərəfindən aparılmışdır.

**Qeyd 3:Hesabatların tərtib edilməsinin əsasları**

**Maliyyə hesabatlarının tərtib edilməsinin əsasları:**

Maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan manatı ilə ölçülmüşdür. Şirkətin gəlir və xərclərinin tanınması zamanı üstünlük kassa metoduna ilə uçotun aparılmasına verilmişdir.

**Qeyd 4:Mühasibat uçotunun mühüm prinsipləri**

**Pul vəsaitləri və onların ekvivalentləri.**

Pul vəsaitləri nağd pul vəsaitləri və bank hesablarında saxlanılan depozitlərdən ibarətdir.

**Sığorta ehtiyatları.**Sığorta ehtiyatları sığortaçının sığorta və ya təkrarsığorta müqavilələri üzrə sığorta ödənişlərinin həyata keçirilməsi üçün öhdəliklərinin məcmusuna uyğun olaraq formalaşdırılan fondlardır.

**Sığortaçının investisiya siyasəti**. Maliyyə bazarlarına nəzarət orqanı sığortaçıların investisiya əməliyyatları ilə bağlı qaydalar müəyyənləşdirir. Qaydalara əsasən qeyd edilən aktivlər aşağıdakılardır:

Dövlət qiymətli kağızları;
Bank hesablarındakı pul vəsaitləri;
Daşınmaz əmlak;
Qeyri-dövlət qiymətli kağızları;
*Digər hüquqi şəxslərin nizamnamə kapitalına* qoyulmuş vəsaitlər;
Öz işçilərinə borc verilmiş pul vəsaitləri.

**Torpaq, tikili və avadanlıqlar.**Şirkətin Torpaq, tikili və avadanlıqları ilkin dəyər və ya yenidən qiymətləndirmə dəyəri ilə qeydə alınır.

**İlkin dəyər dedikdə** – Aktivin satın alınması və ya tikilməsi, daşınması və quraşdırılması zamanı, onun əldə edilməsi üçün ödənilmiş pul vəsaiti və ya pul vəsaitlərinin ekvivalentləri və yaxud, tətbiq edilməsi mümkün olan təqdirdə, digər Standartların xüsusi tələblərinə uyğun olaraq ilkin mərhələdə tanınmış aktivə aid edilən məbləğdir.

**Yenidən qiymətləndirmədəyər dedikdə** - Aktiv kimi tanındıqdan sonra, ədalətli dəyərlərinin müəyyən edilməsi mümkün olan torpaq, tikili və avadanlıqlar hər hansı yığılmış amortizasiya və qiymətdəndüşmə zərərləri çıxılmaqla yenidənqiymətləndirmə tarixinə onların ədalətli dəyəri olan yenidənqiymətləndirmə dəyəridir.

**Amortizasiya ayırmaları.**

Şirkətdə əsas vəsaitlər və qeyri maddi aktivlərə amortizasiya ayırmaları Vergi Məcəlləsinin 114 maddəsinə uyğun illik amortizasiya normaları aşağıdakı kimi müəyyən edilir::
Binalar, tikililər və qurğular ildə - 7% - dək
Maşınlar və avadanlıq ildə 20% - dək
Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası üzrə ildə - 25% - dək
Nəqliyyat vasitələrinə - ildə 25% - dək
Digər əsas vəsaitlər (Mebelvə sair avadanlıqlar) - ildə 20% - dək
Qeyri-maddi aktivlər- istifadə müddəti məlum olmayanlar üçün - 10 faizədək, istifadə müddəti məlum olanlar üçün isə illər üzrə istifadə müddətinə mütənasib məbləğlərlə.

**Mənfəət vergisi**

Vergilər, Azərbaycan Respublikasının hal-hazırda qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hazırkı maliyyə hesabatlarında əks olunmuşdur. Şirkətin gəliri (vergidən azad edilən gəlirdən başqa) ilə gəlirdən çıxılan xərci arasındakı fərq onun mənfəətidir. Mövcud vergi qanunvericiliyinə əsasən Şirkətin mənfəətindən 20 faiz dərəcəsi ilə vergi tutulur.

**Şirkətin gəlirləri** - Əsas əməliyyat gəlirlərindən və sair gəlirlərdən ibarətdir.

**Şirkətin xərcləri** - Əsas əməliyyat xərclərindən və sair xərclərdən ibarətdir.

**Xarici valyuta əməliyyatları.** Xarici valyutada əməliyyatlar həmin əməliyyat günü qüvvədə olan valyuta məzənnəsi ilə qeydə alınır. Xarici valyuta ilə aparılan əməliyyatlardan yaranan məzənnə fərqləri həmin gün qüvvədə olan valyuta məzənnəsindən istifadə etməklə məcmu gəlirə dair hesabata daxil edilir. 31.12.2020-ci il tarixinə məzənnə aşağıdakı kimidir:

1USD =1,700manat

**İşçilərə sərf olunan xərclərlə bağlı ayırmalar.** Şirkətin işçilərə verilən əmək haqqları və sosial müdafiə fonduna köçürmələri xərc kimi tanınır və işçilərə sərf olunan xərclər və sosial müdafiə fonduna xərclər kimi qeyd edilir.

**Qeyd 5: Audit zamanı aşağıdakı nəticələr müəyyən olmuşdur.**

- Şirkətin fəaliyyəti Sığorta Fəaliyyəti haqqında qanunun 7.6-cı maddəsinə (Sığortaçı kommersiya təşkilatı olan hüquqi şəxs olmaqla yalnız açıq səhmdar cəmiyyəti təşkilati-hüquqi formasında fəaliyyət göstərə bilər) uyğunluq təşkil etmir.
- Şirkətin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti sistemində ki digər mükəlləfiyətində şəxsi daşınmaz əmlakın istismara və kirayəyə verilməsi 68200 fəaliyyət kodu var. Bu fəaliyyət növü Sığorta Fəaliyyəti haqqında qanunun 11-ci maddəsinə (Maddə 11- Sığortaçının fəaliyyət istiqamətləri) uyğun deyil. Şirkətin oğuz filialı bugünə kimi öz əmlakını icarəyə verir.Maliyyə xidmət departamenti tərəfindən verilən məlumata əsasən 2020-ci il üzrə bu məbləğ 222.00 manat təşkil edir. Verginin sistemində bu məbləğ illik 3600.00 manat görünür.Bu məsələ ilə bağlı Mərkəzi Banka müraciət edilməli və bu məsələnin qanuna uyğunluğu haqqında məlumat alınmalıdır.
- 04 mart 2020-ci il Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin № 08/2 saylı qərarı ilə "Sığortaçının tələb olunan kapitalının minimum məbləği" təsdiq edilmişdir. Həmin qərarda Qeyri-həyat sığortası fəaliyyəti üzrə - 5 000 000 (beş milyon) manat müəyyən edilmişdir. Şirkətin Mərkəzi Banka təqdim etdiyi illik hesabatda məcmu kapital 697 311,13 manat təşkil edib. Sığorta Fəaliyyəti haqqında qanunun 118.1.2 maddəsinə əsasən sığortaçının məcmu kapitalı onun tələb olunan kapitalının 30 faizindən az olduqda sığortaçının iflas proseduruna başlanılması nəzərdə tutulur.

- Hesabatda yer alan 7 068,30 manat məbləğ təhtəl hesab şəxslərdən geri qaytarılmadığı üçün vergi məcəlləsinin 98.2.7. maddəsinə əsasən (işəgötürən tərəfindən işçiyə (təhtəlhesab şəxsə) verilmiş təhtəlhesab vəsait müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada geri qaytarılmadıqda – həmin vəsaitin məbləği) əmək haqqına əlavə edilməklə vergi və digər öhdəliklər yaradır (sosial sığorta və işsizlikdən sığorta).
- Aparılan audit zamanı müəyyən edilmişdir ki, şirkətin ehtiyacları üçün təhtəl hesab şəxs tərəfindən şirkətin biznes kartından əldə edilmiş vəsaitlərin tələbnaməsi mövcud deyildir. Həmçinin təhtəl hesab şəxs tərəfindən alınmış əsas vəsaitlər və mal material ehtiyatları zamanı satıcı vergi ödəyicilərindən elektron qaimə faktura əvəzinə qəbz və çek alınır. Vergi Məcəlləsinin 109.8-ci maddəsinə əsasən - Nəzarət-kassa aparatının çeki və ya qəbz (bu Məcəllənin 16.1.11-6.1-ci – 16.1.11-6.3-cü maddələrində nəzərdə tutulan şəxslər tərəfindən verilən qəbz və ya digər ciddi hesabat blankları istisna olmaqla) malların (işlərin, xidmətlərin) alınması ilə bağlı çəkilən xərcləri təsdiq edən sənəd hesab olunmur.
- Şirkətdə uçotun aparılmasında kassa metoduna üstünlük verilir. Bu da aktiv və passivlərin tanınması zamanı Beynəlxalq Maliyyə Hesabatları Standartları prinsipi ilə ziddiyət təşkil edir.
- 2020-ci ilin sonuna əsas vəsaitlərin siyahısı hər bir əsas vəsait və əsas vəsaitlərin kateqoriyası üzrə mövcud deyil.
- Audit zamanı müəyyən olunmuşdur ki, uçotda azqiymətli və tezköhnələn əşyaların və mal materialların siyahsı əmlak üzrə mövcud deyil, yalnız filiallar və şirkət üzrə qeyd edilib.
- Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədrinin 22 aprel 2020-ci il tarixli fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin əsasında publik hüquqi şəxs statuslu Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti yaradılmışdır. Qeyd edilən fərmana əsasən Azərbaycan Respublikası Dövlət Kommersiya Şirkətinin filialı olan Naxçıvan Dövlət Sığorta filialı şirkətdən ayrılmışdır. Ayrılma zamanı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə məlumat verilməmiş və ayrılma zamanı aktivlərin bölgüsü ilə bağlı heç bir sənəd olmamışdır. Şirkətin Maliyyə xidməti departamenti tərəfindən verilən məlumata əsasən aktivlər aşağıdakı kimi olmuşdur:

  - Əsas vəsaitlərin qalıq dəyəri - 875 766,00 manat
  - Sair maliyyə aktivləri - 4 158 367,00 manat
  - Kassa qalıqı - 3 870,00 manat

- Həmçinin müəyyən edilmişdir ki, Naxçıvan filialının balansında yer alan aktiv və passivlər (sığorta haqqları, sığorta ödənişləri və sair xərclər istisna olmaqla) mənfəət və zərər hesabatında düzgün olmayaraq sair gəlir və xərclərə aid edilmişdir.
- Audit zamanı müəyyən edilmişdir ki, filiallar ilə bağlı xərclərin açıqlaması baş ofisin balansında açıqlamalı şəkildə görünmür.
- Əsas vəsaitlərin 2018-ci ilin balansında yenidən qiymətləndirmə üzrə ehtiyat 1 865 018,00 manat, lakin 2019-cu il üzrə yenidən qiymətləndirmə üzrə ehtiyat 3 120 220,00 manat artırılaraq 4 985 238,00 manat olub. Təqdim edilən

hesabatlarda 5 005 238,00 manat göstərilib. 5 005 238,00 manat - 4 985 238,00 manat = 20 000,00 manat artıq göstərilib.

- Əsas vəsaitlərin təmiri üzrə xərclər mənfəətin istifadəsi xərcinə və cari xərclərə aid edilib. Xərclər hesablanarkən vergi məcəlləsinin 115-ci maddəsinin tələbləri nəzərə alınmayıb.
- Audit zamanı müəyyən edilib ki, sığorta vasitəçilərinə ödənilən komissiyonlar ilə bağlı aylıq aktlar tərtib edilmir. Bu əməliyyatların vergi orqanı tərəfindən yoxlama zamanı əmtəəsiz əməliyyat kimi qiymətləndirimə riski var.
- Şirkətin baş ofisinin balansında sığorta vasitəçilərinə ödənilən komissiyon haqqların hansı vasitəçilərə ödənilməsi qeyd edilməyib. Yalnız filiallar üzrə qeyd edilir.
- İcbari sığortalar haqqında qanunun 12.4-cü maddəsinə əsasən - Sığortaçı daxil olan sığorta haqlarının 20 faizədək hissəsini işlərin aparılması xərclərinə, o cümlədən 15 faizədək hissəsini sığorta vasitəçiliyi xidmətinə görə verilən komisyon muzdlara sərf edə bilər. Şirkət tərəfindən sığorta vasitəçilərinə ödənilən əlavə 5% işlərin aparılması xərci ilə bağlı müqavilə bağlanılmalı və hər görülmüş iş üzrə akt tərtib edilməli, həmçinin elektron qaimə faktura tərtib edilməlidir.
- Xaçmaz filialının 2020-ci il ilin 4-cü rübü üzrə çəkdiyi işlərin aparılması xərcləri baş ofisin balansına daxil edilməyib. Verilən məlumata əsasən məlumatları təqdim edən şəxsin olmaması bildirilib.
- Maliyyə xidməti departamentindən verilən məlumata əsasən sair debitorlarda yer alan 14 444,00 manat Xızı rayon filialının əskik gəlməsi ilə bağlıdır. Aparılmış audit zamanı müəyyən olunmuşdur ki, Xızı rayonu əməkdaşı Məmmədov Vahidcan Anarbəy oğlunun 18 024,75 manat Şirkətə borcu olmuş və bu borcun müqabilində Şirkətə 2016-cı il tarixli məhkəmə qətnaməsi ilə bağlı öz torpaq sahəsini təhvil vermişdir. Bununla bağlı 28.12.2016-cı il tarixli Şirkət ilə Məmmədov Vahidcan Anarbəy oğlu arasında akt tərtib edilib və həmin aktda ona məxsus 18 024,75 manat torpaq sahəsi Şirkətə təhvil verilmiş və Şirkətin bu borcla bağlı heç bir iddiasının qalmadığı aktda qeyd edilmişdir. Buna baxmayaraq həmin torpaq sahəsi Şirkətin balansına daxil edilməmiş və qeyd edilən borcla əvəzləşdirilməmişdir. Həmçinin Qətnamə və aktda qeyd edilən məbləğdən balansda olan məbləğ arasında 3 580,75 manat fərq var.
- Sair debitorlarda yer alan artıq 41 734,18 manat məbləğin açıqlaması ilə bağlı izahat hesabata əlavə edilir.
- Balansda asılı təşkilatlar üzrə 14 691 123,07 manat məbləğ yer alır. Bu məbləğin açıqlaması ilə bağlı izahat hesabata əlavə edilir.
- Audit zamanı Maliyyə xidməti departamentindən baş ofis və filiallar üzrə vahid əmək haqqı cədvəli istənilmiş, lakin həmin cədvəl auditə təqdim edilməmişdir. Verilən məlumata əsasən hər bir işçi üzrə əmək haqqları filialların özləri tərəfindən işlənildiyi bildirilmişdir. Cədvəl təqdim edilmədiyi üçün əmək haqqı, vergi və sosial sığorta ödənişləri üzrə öhdəliklərin hesablanması mümkün olmamışdır.
- Balansda yer alan sığorta müqavilələri üzrə 122 060,00 manat debitor borclar sığortalılar üzrə qeyd edilmir. Şirkət və filiallar üzrə qeyd edilir.
- Maliyyə xidməti departamenti tərəfindən verilən məlumata əsasən balansda yer alan 162328,00 manat məbləğin 64 900,00 manatı Kapital Bankın tranzit hesabında olan məbləğdir. Lakin 97 428,00 manat sair pul vəsaitlərin açıqlaması (yolda və ya əldə olan pullar) şəxslər üzrə deyil, filiallar üzrə qeyd edilib. Vəsaitlərin hansı şəxslərdə olması qeyd edilməyib.

- Banklardan təsdiqedici sənədlər alınmış və yoxlanılan zaman məlum olmuşdur ki, "AzərTürk Bank" ASC-də Şirkətin pul qalığı 1 000 000,00 manat olmasına baxmayaraq hesabatda 1 052 896,00 manat göstərilmişdir. Bank qalıqlarında 1 052 896,00 manat - 1 000 000,00 manat = 52 896,00 AZN artıq əks etdirilmişdir. Bu məbləğin açıqlaması ilə bağlı izahat hesabata əlavə edilir.
- Şirkətin Xaçmaz rayonda yer alan Tərlan İstirahət Mərkəzinin sənədləri auditə təqdim edilməmişdir.

**"Business Consulting Company" MMC-nin direktoru:** ____________ **Rəhman Məmmədov**

**"Business Consulting Company" MMC-nin auditoru:** ____________ **Rəhman Məmmədov**

M.Y

**"Dövlət Sığorta Kommersiya şirkətinin İdarə Heyəti sədrinin müavini** ____________ **Möhübbət Fərəcov**

**"Dövlət Sığorta Kommersiya şirkətinin baş mühasibi** ____________ **Əfruz Şərifova**

M.Y